

14 SU ALTINDA HƏYAT

# SU ALTINDA HƏYAT:
# BU NƏ ÜÇÜN VACİBDİR?

## Burada məqsəd nədir?

Okeanların, dənizlərin və dəniz resurslarının qorunması və dayanıqlı istifadəsidir.

## Nə üçün?

Okeanlar qida, dərman, bioyanacaq və digər məhsullar kimi əsas təbii resursları təmin edir. Onlar tullantıların və çirklənmənin aradan qaldırılmasına kömək edir. Sahil  ekosistemləri tufanların zərərini azaldan bufer rolunu oynayır. Okeanların təmiz saxlanılması iqlim dəyişikliyinin təsirinin azaldılmasına və adaptasiya cəhdlərinə kömək edir. Heç dəniz kənarında olmusunuzmu? Bu həm də turizm və istirahət üçün gözəl yerdir.

Bundan başqa Dəniz Mühafizə Əraziləri balıq ovunun və gəlirlərin artırılması, sağlamlığın yaxşılaşdırılması vasitəsi ilə yoxsulluğun azaldılmasına töhfə verir. Kiçik balıq təsərrüfatlarında işin çox hissəsini görən qadınların gender bərabərliyinin təmin edilməsinə də Dənizə Mühafizə Əraziləri kömək edir.

Dəniz birhüceyrəli orqanizmlərdən tutmuş Yer üzərindəki ən böyük canlı olan mavi balina da daxil olmaqla gözəl varlıqların yaşadığı mühitdir.
Bura həmçinin planetin ən rəngarəng ekosistemlərindən biri olan mərcan qayalıqlarının vətənidir.

**Dəniz Mühafizə Əraziləri insanlara gəlir əldə etmək imkanı verməklə və onların sağlamlığını yaxşılaşdırmaqla yoxsulluğun azaldılmasına töhfə verir.**

## Belə çıxır ki, bu əraziləri qorumağa dəyər. Bəs problem nədədir?

Dünya okeanlarında çirklənmənin səviyyəsinin artması böyük ekoloji və iqtisadi təsirə malikdir. Canlılar dənizdəki tullantılara dolaşanda və ya onları udanda ya məhv olurlar, ya da nəsil vermirlər ki, bu da öz növbəsində biomüxtəlifliyə təsir göstərir.

Dünyanın mərcan qayalıqlarının təxminən 20 faizi nəzərə çarpacaq dərəcədə məhv edilmişdir və bərpasına heç bir ümid yoxdur.
Qalan mərcan qayalıqlarının 24 faizi insan təsiri nəticəsində yaxın zamanda, digər 26 faizi isə uzun müddətdən sonra məhv olma təhlükəsi altındadır.

Bundan başqa, dənizçilikdə qeyri-qənaətbəxş idarəetmə həddən çox balıq ovu ilə nəticələnir.
Balıqçılıq sektorundakı illik itkilər 50 milyard ABŞ dolları həcmində təxmin edilir.
BMT-nin Ətraf Mühit Proqramının hesablamalarına görə okeanların zəif idarəçiliyinin ümumi iqtisadi təsiri ən azı illik 200 milyard ABŞ dolları təşkil edir.

Mənfi təsirlərin azaldılması ilə bağlı tədbirlər görülməzsə, iqlim dəyişikliyinin okeanlara vurduğu zərər 2050-ci ilə qədər əlavə olaraq illik 322 milyard ABŞ dolları təşkil edəcək.

## Bunu aradan qaldırmaq üçün nə qədər vəsait tələb olunur?

Böyük miqyaslı fəaliyyətin xərcləri uzunmüddətli gəlirlərlə bərpa olunur. Bioloji Müxtəliflik haqqında Konvensiya hesab edir ki, dünya okeanında vəziyyətin yaxşılaşdırılması üçün irimiqyaslı tədbirlərə 32 milyard ABŞ dolları həcmində birdəfəlik sərmayə və təkrarlanan xərclər üçün isə ildə 21 milyard ABŞ dolları tələb olunur.

## Bəs nə edə bilərik?

Açıq okean və dəniz dərinliklərində dayanıqlılıq yalnız həssas məskanları qorumaq üçün beynəlxalq əməkdaşlığın gücləndirilməsi yolu ilə əldə edilə bilər.
Dövlət tərəfindən mühafizə edilən ərazilərin hərtərəfli, səmərəli və ədalətli idarə edilməsi sisteminin yaradılması biomüxtəlifliyin qorunmasına və balıqçılıq sənayesinin dayanıqlılığına istiqamətləndirilməlidir.

Yerli səviyyədə verilən qərarlara gəldikdə, dəniz məhsulları alarkən, qidalanarkən okeanların xeyrinə seçim etməliyik və yalnız ehtiyacımız olan qədər istehlak etməliyik.
Sertifikatlaşdırılmış məhsulların seçilməsi fəaliyyət üçün yaxşı başlanğıcdır.

Gündəlik həyatımızda ictimai nəqliyyatdan istifadə, elektrik cihazlarını şəbəkədən ayırmaq kimi kiçik dəyişikliklər etmək enerjiyə qənaət edir. Bu fəaliyyətlər isə dəniz səviyyəsinin yüksəlməsinə səbəb olan karbon miqdarını azaldır.

Biz plastikdən istifadəni bacardıqca azaltmalı, sahil zolaqlarında təmizlik kampaniyaları keçirməliyik.
Ən əsası, biz su altında həyatın vacibliyi və onu qorumağın zərurəti fikrini yaya bilərik.

Məqsəd 14 və digər dayanıqlı inkişaf məqsədləri barədə məlumat üçün linkə daxil olun.

http://www.un.org/sustainabledevelopment

DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ

DÜNYAMIZI DƏYİŞMƏK ÜÇÜN 17 MƏQSƏD